*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 12 sentyabr 2020-ci il | № 57 (2475) | Qiymәti 30 qəpik


*Ön xətdən reportaj*

# Döyüş əzmi, qələbə ruhu və işğala atılan son güllə



*Döyüş əzmi döyüşmək istəyidi, döyüşmək məqsədidi. Həm də Vətən naminə döyüşməyin müqəddəsliyini yaşatmaqdı. Belə döyüşə tarixi döyüş də deyə bilərik. Tarixi döyüşlər anları tarixləşdirmə niyyətidi. Əsgərin döyüş hazırlığını döyüş əzmi, qələbə ruhunu mənəvi-psixoloji hazırlığı tamamlayır. Döyüş əzmi ilə qələbə ruhunun vəhdəti döyüş hazırlığı ilə mənəvi-psixoloji hazırlığın vəhdəti ilə mütənasib olmayan ordu güclü ordu ola bilməz. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş əzminin də, qələbə ruhunun da mahiyyəti torpaqlarımızın işğaldan azad edilməsinə təşnəlikdi. Buna görə ordumuz dünyanın ən güclü orduları sırasındadı. Məmləkət boyunca yaşanılan bu qürur vətəndaşlıq heysiyyətini müəyyənləşdirməyə qadir olan qürurdu.*

Səngərdə eşitdiyim bir fikrin doğmalığına sığınmışdım. Müqəddəs doğmalığıydı. Döyüş növbətçiliyi aparan əsgər son döyüşdən söz açmışdı. Son döyüş ifadəsi düşüncələrimi tərpətmişdi: Son döyüşü işğalın son nəfəsi olacaq. Son döyüşü tarixin səmtini döndərmək istəyənlərə vətənpərvərliyin oxuduğu hökm biləcəyik. Bu hökmün icraçısı Azərbaycan əsgəri olacaq. Döyüşlərin yaşarı, bəşəri nidası Şuşanın dağlarının dumanını dağıdacaq, Cıdır düzünün çiçəklərinin ləçəklərinə sığal çəkəcək, bulaqların sıxıntılardan sıyrılan şırıltısına qarışacaq...

"Döyüş əzmi mənəvi-psixoloji hazırlıqla müəyyənləşir. Silahlanmaya daxil edilən ən müasir silahların istismar xüsusiyyətlərini mükəmməl mənimsəyən əsgərlərimizin döyüş hazırlığı təlimlərlə təkmilləşir. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən aparılan ictimai-siyasi dərslər, bu və ya digər mövzuda disputlar, söhbətlər əsgərlərin mənəvi-psixoloji hazırlığını artırır. Yəni, döyüş əzminin də, qələbə ruhunun da yüksəldilməsi həm də əsgərin vətənsevərliyi ilə bir sırada bu amillərlə bağlıdır. Qürurla deyirəm ki, Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini qələbə ilə tamamlamağa qadirdir", - zabit Səbuhi Qarayevin dediyi bu fikirlərin ovqatıyla səngərlərə çatırıq.

**(Ardı 2-ci səhifədə)**

# Döyüş əzmi, qələbə ruhu və işğala atılan son güllə



(Əvvəli 1-ci səhifədə)

Səngərlərin qənşərində bunları xatırlayıram, xatırladıram və işğala son gülləni atacaq əsgərin sağında olmaq keçir könlümdən. Bu gözəl niyyətim zabit Elman Ağayevi duyğulandırır:

- Bayaq yolun kənarında gördüyümüz plakat sizi də, bizi də duyğulandırdı. Bu yolun şərti sonu qələbə yolunun başlanğıcı olacaq, - zabitin inamı mənə 1992-ci ilin dekabrını, Murovdağın o üzünə aparan yolun başlanğıcında dediklərini xatırladır: Dediyiniz nida Kəlbəcərdə, Kəlbəcərdən sonra işğaldan azad ediləcək digər rayonlarda işğala atılan son güllə kimi səslənəcək. Bir az əvvəl blindaj dinlədiyimiz "Ruhani"yə darlıq etmişdi, "Misri" əsgərlərin ruhunun misrisinə - qılıncına dönmüşdü. Bunu xatırladıram və xatırlatmam səngərli söhbətin başlanğıcı olur. "İyul döyüşləri əsgərlərimizin döyüş əzmini də kükrədib, qələbə ruhunu da. Hər biri Böyük Qələbənin əsgəri olmaq istəyiylə xidmət edir", - inanıram ki, zabitin səsində də, baxışlarında da gördüyüm qətiyyətin eynini - "Ruhani"dən "Misri"yə keçidin əlamətlərini əsgərlərin əhatəsində daha duyğusallıqla görəcəm. O məqama tələsirik...

- Böyük tarixi şəxsiyyət Heydər Əliyevin "Hər bir vətəndaş Azərbaycan əsgərinə, zabitinə hörmət, ehtiram və qayğı göstərməlidir" - tövsiyəsi unudulmayacaq. Böyük tarixi şəxsiyyətin bu fikri gənclərin vətənpərvərlik duyğularının formalaşması üçündü. Bu fikrin sevgi olduğu, orduya sevgi olduğu hərbi xidmətdə daha əhatəli hiss edilir. Biz bunu gənc əsgərlərin hərbi xidmətə münasibətində daha əhatəli duyuruq, - zabit Elman Ağayev belə deyir. Zabitin bu xatırlamasını mətləbə keçid bilirik. Bu fikir bizə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir tövsiyəsini də xatırladır: "...Bütün hərbi hissələrdə ideoloji vəziyyətə xüsusi əhəmiyyət verilməlidir. Ölkəmizin tarixi - həm qədim tarixi, həm də müasir tarixi ilə əlaqədar hər əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır". Bu tövsiyə tariximizi öyrənə-öyrənə gələcək tariximizi yazacaq əsgərlərin döyüş əzmini, qələbə ruhunu düşüncələrimizin döyüş bayrağı bilməliyik ki, yaxın vaxtlarda Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq əsgərlərin ruh qardaşı ola bilək. "Oğul itirən anaya oğulam, qardaş itirən bacıya qardaşam, ata itirən uşağa əmiyəm, dayıyam" deyən əsgərləri əzizimiz bilirik, - deyirəm. Zabitin baxışlarında incə bir təbəssüm görünür. Bu təbəssüm bizim timsalımızda ictimaiyyətə ehtiramdı, zabitlərə təşəkkürdü. O təşəkkürün sözlə ifadə edilməsinə ehtiyac duyulmur.

Əsgərlərlə Vətəndən danışırıq. Əsgər Dəmir Nəbiyev deyir ki, hərbi xidmət borcdu, biz bu borcu böyük sədaqətlə yerinə yetiririk. "Vətəndaşın Vətən borcu hərbi xidmətlə tamamlanmır. Əsl vətəndaş üçün Vətən borcu son nəfəsəcən yerinə yetirilməli olan borcdu", - deyirəm. Əsgərlərin baxışlarında başaçılmaz bir tündləşmə hiss olunur. Bayaqdan bəri doğmalığına sarıldığım bu gözəl baxışların nədən belə dəyişdiyini güman etməyə macal tapmıram. Əsgər Murad Musayev deyir ki, dediyiniz xarakter hərbi xidmətdə formalaşır. İstər 2016-cı ilin aprelində, istərsə də bu ilin iyulunda minlərlə müharibə veteranının, əlilinin döyüşlər gedən əraziyə gəlməsi, döyüşmək niyyətində olması onların hərbi xidmət borcu deyildi, vətəndaşlıq borcu idi.

Əsgərin iyul döyüşlərini də, döyüşlərdən bir güllə mənziliycə aralıda yaşananları da bu qürurla xatırlamasını bir həqiqətin yaşarılığına rəmz bilirik: Azərbaycan əsgərinin qələbəsi də tarixdi, minlərin döyüşlərin döyüşlər getdiyi vaxtlarda "bir güllə məsafəsində" qələbə qazananların küreyini nəfəsiylə isitməsi də.

- Döyüş əzmi təkcə əsgərlərə aid deyil. Döyüş əzmi ictimaiyyətin döyüş əzmidi, qələbə ruhu ictimaiyyətin qələbə ruhudu. Ali Baş Komandanın döyüş əmri ictimaiyyəti də müsəlləh əsgər edəcək. İctimaiyyət bu inamla yaşayır, ordu bu inamı gücünə güc bilir. Bu inam son illərdə ordu quruculuğunda həyata keçirilən tədbirlərlə bağlıdı, müxtəlif təyinatlı genişmiqyaslı təlimlərin nəticələrinə bələdliyin inamıdı, ordu quruculuğuna xüsusi diqqətin qürurudu, - deyirəm.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Qüdrət Əlizadə gözdolusu əsgər yoldaşlarını süzür. Bu baxışlarda ehtiram var, sevgi var, güvənc var - əsgər ehtiramı, əsgər sevgisi, əsgər güvənci könlümüzü tellədirir, inamımızın mehrabına dönür:

- Muradın dediklərinin təkrarı olmasın, 2016-cı ilin aprelində döyüşlər getdiyi müddətdə minlərlə çağırış yaşlı gənc, müharibə veteranı döyüşü güllə, mərmi səslərini eşidə-eşidə izləmişdi. Ermənilər iyulun 12-də Azərbaycanın dövlət sərhədini pozanda, Tovuz rayonu istiqamətindən Azərbaycanın ərazisinə hücum edəndə də eyni ovqat yaşanıldı.

Əsgər İsaq Allahverdiyev əsgər yoldaşının fikirlərini səmimiliklə tamamlayır:

- Əsgərlərimiz bu təxribatın da qarşısını qətiyyətlə aldı, düşmənin neçə-neçə dayaq məntəqəsini dağıtdı, neçə-neçə döyüş texnikasını, onlarla canlı qüvvəsini məhv etdi. Bu həmrəylik əsgərlərimizin qələbə ruhunu yüksəltmişdi. Əsgərlərimiz qələbə qazandı.

Əsgərlərin mükalimələşməsini əsgər dostluğunun təzahürü bilirəm:

- Hər iki qələbə Azərbaycan Ordusunun qüdrətinin qələbəsi kimi yaşanıldı, bunlar Azərbaycan əsgərinin qələbə ruhunun qüdrətidir.

Əsgər Elcan Bayramov yaxın keçmişimizin tarixi bir gününü xatırladır:

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ilin iyununda Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş paradda dedi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək". Qələbənin də, həmin paradın da iştirakçısı olmaq istəyirik.

- Onda məktəbliydin, indi əsgərsən. Onda yaşadığın duyğular səni bu gün də duyğulandırır. Bu, həmin paradın möhtəşəmliyinin nəticəsidirmi, sənin hərbi mundirə sevginmi? - soruşuram. Əsgərin baxışlarında incə bir titrəyiş hiss edilir. Bu, zaman anlamında dünənlə bu günün qarşılaşdırılmasının gözlənilməzliyidi; bir daha əmin oluram ki, Azərbaycan əsgəri gözlənilməzlikləri də nizama salmağa qadirdir:

- Həmin parad xalqımıza da, dünyaya da ordumuzun gücünü göstərən parad oldu. Təbii ki, mən də Azərbaycanın hərbi gücünün göstəricisi olan o paradın qürurunu Böyük Qələbənin paradına kimi yaşadacam, - əsgər belə deyir, düşüncələrimi düşüncələriylə elə gözəl qoşalaşdırır ki!..

Əsgərlərin dediklərini döyüş əzminin, qələbə ruhunun ifadəsi kimi dinləyirəm.

Əsgərlərin baxışlarında duyduğum döyüş əzmini qələbə ruhu tamamlayır...

Əsgərlərin baxışlarında duyduğum qələbə ruhunu işğala atılacaq son güllə bilirəm...

Bayaqdan bəri həzin-həzin əsən meh bir qədər çılğınlaşır, bir azdan kükrəyəcək...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Bir qrup şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə fərdi evlər verilib





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Lənkəran rayonunda inşa edilmiş 14 fərdi yaşayış evi şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.

Evlərin təqdim edilməsi tədbirində nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov, Lənkəran şəhər İcra Hakimiyyəti başçısının müavini Xalid Rəhimov iştirak edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğı göstərdiyini vurğulayan V.Behbudov bunun daha bir təzahürü kimi həssas əhali qrupları ilə bağlı sosial müdafiə proqramlarının ildən-ilə genişləndiyini diqqətə çatdırıb.

O qeyd edib ki, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının yaxşılaşdırılması ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu kateqoriyalardan olan vətəndaşların mənzillə təminatı işləri də getdikcə güclənir. Onlara 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626, ötən il 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən 2020-ci ildə isə şəhid ailələrinə və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Hazırda Lənkəran rayonunda təqdim edilən fərdi evlər də daxil olmaqla, onlardan artıq 568 mənzil və fərdi ev (o cümlədən 554 mənzil, 14 fərdi ev) verilib. Digər mənzillər və fərdi evlər də ilin sonunadək veriləcək.

V.Behbudov, ümumilikdə, ötən dövrdə şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 8156 mənzil və fərdi ev verildiyini bildirib.

O, həmçinin nazirlik tərəfindən müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 2018-ci ildə 265 avtomobil, 2019-cu ildə 600 avtomobil verildiyini deyib. Eyni zamanda, 2020-ci ildə onlara 400 avtomobil verilməsinin nəzərdə tutulduğunu və onlardan artıq 150-nin təqdim edildiyini, bu vaxta qədər müharibə əlilləri və onlara bərabər tutulanların 6900 minik avtomobili ilə təmin olunduğunu qeyd edib.

Yeni fərdi yaşayış evi ilə təmin edilən şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri onların sosial müdafiəsinin gücləndirilməsinə göstərilən yüksək qayğıya, yeni fərdi yaşayış evləri ilə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

*Ön xətdən reportaj*

# "Dağlardan zəfər topları atılacaq"

*Ürəyimdə Vətən nəğməsi yolumuz Azərbaycan əsgərinin yanınadır. Elə bir nəğmə ki, o böyük konsert salonlarında deyil, bir bulaq başında, bir dağ yamacında, İsa bulağında, Laçın yaylaqlarında, Cıdır düzündə, barıt qoxulu səngərlərdə oxuna bilər. O nəğmə həsrətə son qoyulacaq günün - qələbə gününün nəğməsidir. Ürəyimdəki nəğməni xalqımızın həsrətinə son qoyacaq Azərbaycan Ordusunun şəxsi heyətinə - zabitinə, gizirinə, əsgərinə oxumaq məqsədilə yola çıxmışıq.*





Qarabağ adlı mahnını zümzümə edib yola çıxdığımdan ürəyim köksümə sığmır. Şehi çəkilməmiş çöllərin, kənd evlərinin günəşə açılmış pəncərələrinin, yol qırağına düzülmüş ağacların bəxş etdiyi doğmalıq mənə nostalji hisslər yaşadır. İrəli, dağlara doğru getdikcə qarşımızda açılan mənzərə insanı heyrətə salır.

Dağlar həmin dağlardır... Min il əvvəlki kimi, yenə qışda qarlı zirvələri, yazda yaşıllanan köksü ilə yüksəlib, gəlib gedəni seyr edir.

O uca dağlar da şahidi oldu ki, erməni qəsbkarları torpaqlarımızın 20 faizini necə işğal etdilər. Şuşa, Ağdam, Xocalı, Kəlbəcər, Laçın tamamilə necə məhv edildi. Düşmən yerli əhalini öz ata-baba yurdundan necə didərgin saldı.

"Qarabağ bu gün bizim yolumuzu gözləyir. Uca dağlar da torpaqlarımızın düşmən işğalından azad olunacağı günün həsrətindədir. Bu onun haqqıdı", - deyə zabit Eldəniz İsmayılov ürəyimdən keçəni duyurmuş kimi bildirir. - Qarabağın hər qarış torpağı, dağı, dərəsi, enişi, yoxuşu, çayı, bulağı, hər birimiz üçün doğmadır, əzizdir. Bu torpaqları düşməndən azad etmək biz hərbçilərin ən müqəddəs borcudur. Təbii ki, bunun üçün hamımız bir yumruq kimi birləşib, Ali Baş Komandanımızın hər an verə biləcəyi göstərişlərə hazırıq.

"Son qələbələrimiz sübut etdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti tezliklə torpaqlarını işğaldan azad edəcək", - deyə baş leytenant Elgün Mustafazadə qeyd edir. - Azərbaycan xalqının qəhrəmanlıq dastanı XXI əsrdə də davam edir. Azərbaycan torpaqlarını işğal edən Ermənistana qarşı bu gün də bütün cəbhə boyu mübarizə gedir. Mərd oğullarımız mənfur düşmənlə üz-üzə dayanıb, qəhrəmancasına döyüşürlər. Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu, onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazırıq.

Zabit Eldəniz İsmayılov həmkarının sözünün təsdiqi olaraq onu da vurğulayır ki, bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin ordumuzun güclənməsi və möhkəmlənməsi üçün göstərdiyi diqqət və qayğı öz uğurlu nəticələrini verməkdədir. "Aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan Ordusunun hərbi-texniki təchizat səviyyəsi, nizam-intizamı və döyüş ruhu kifayət qədər yüksəkdir. Ən mühüm məqamlardan biri bundan ibarətdir ki, bu gün Azərbaycan cəmiyyətində Azərbaycan Ordusuna böyük inam var. Ordumuz hər bir vətəndaşın qürur mənbəyidir. Bu, olduqca vacib amildir. Çünki ordu cəmiyyətdə daxili özünə inamı, dövlətə etimadı gücləndirən əsas faktorlardan biridir. Bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhu yüksəkdir, ordumuz istənilən vaxt verilən əmri yerinə yetirməyə qadirdir".

"Mübariz İbrahimov, Fərid Əhmədov, Polad Həşimov, İlqar Mirzəyev kimi qəhrəman oğullarımızın yolunun davamçısı və torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmaq bir əsgər kimi ən böyük arzumdur", - deyə əsgər Elşad Hüseynov bildirir. - Bu gün hərbi üstünlük müqayisəedilməz dərəcədə bizim tərəfimizdədir. Nəzərəçarpacaq hərbi üstünlüyümüz ordumuzun şəxsi heyətinin döyüş ruhunu daha da artırıb. Uğurlu əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələri bəzi ərazilərimizdən qovulub çıxarılıb, o torpaqlarda Azərbaycanın üçrəngli bayrağı ucaldılıb. Deməli, hərbi qulluqçularımızın, şəhidlərimizin, qazilərimizin sayəsində torpaqlarımız Azərbaycan Ordusunun şəxsi heyətinin nəzarətindədir. İgid oğullarımız şəhidliyi Vətən üçün seçdilər. Onların şəhidliyi, qəhrəmanlığı biz əsgərlərə nümunədir.

"Bəli, şəhidlərimiz sübut etdilər ki, Vətən hamı üçün müqəddəsdir və bu müqəddəslik uğrunda canından keçməyə hazır olan oğullarımız var. Şəhidlik adlı zirvəyə ucalmağı özlərinə şərəf və qürur yeri sayan Azərbaycanın igid, cəsur oğul və qeyrətli qızları, Vətən naminə canlarını qurban verməkdən çəkinməyən, bu yolda öz qanları ilə adlarını şəhidlik adlı uca bir zirvəyə yazanlar isə hər zaman qəlblərdə yaşayacaqlar", - deyə əsgər Cavidan Məmmədov qeyd edir.

Əsgər Əli Abbasquliyev isə təəssüf hissi ilə bildirir ki, bu gün Ermənistan işğalçılıq siyasətini davam etdirir, ərazilərimizi zəbt etmək, mövqelərimizi ələ keçirmək istəyir. "Şəxsi heyətimizin döyüş hazırlığı, mənəvi-psixoloji ruhu, sayıqlığı sayəsində Ermənistan silahlı bölmələrinin hücumlarının qarşısı sərt şəkildə alınır. Düşmənə qarşı tətbiq olunan dəqiq və dağıdıcı gücə malik silahlar, həmçinin əsgər və zabitlərimizin qəhrəmanlığı onu itki verərək geri çəkilməyə məcbur edir. Ordumuzun zabiti də döyüşlərdə biz əsgərlərin yanındadır, bizimlə çiyin-çiyinə vuruşur. Bu amilin özü belə bizi gələcək qələbələrə kökləyir".

"Regionun ən güclü ordusunun əsgəri kimi deyə bilərəm ki, şəxsi heyətin kifayət qədər təlim və döyüş təcrübəsi var. Bizim borcumuz isə bu təcrübədən yüksək səviyyədə yararlanmaqdır", - deyə əsgər Elmin Mirzəliyev bildirir. - Ancaq biz gərək bu təcrübəni təkmilləşdirək və gələn döyüşlərdə qarşımızda dayanan vəzifələri daha yüksək səviyyədə həyata keçirək. Ölkəmizin iqtisadi və hərbi gücü imkan verir ki, Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri uğurla icra etsin".

Əsgər Elnur Quliyev əsgər yoldaşının sözünə qoşularaq vurğulayır ki, Azərbaycan Ordusunun əsgəri üçün Vətənin müdafiəsi hər zaman ən ümdə vəzifə, ən müqəddəs amal olub. "Məhz Aprel və Günnüt zəfərləri, Tovuz döyüşləri də bir daha sübut etdi ki, Azərbaycan Ordusunda necə igid, mətin, dəyanətli, Vətənini, torpağını sevən, ən əsası da dövlətinə sadiq olan oğullar var və belə oğullar bundan sonra da olacaq".

"İgid Vətən oğullarının göstərdikləri şücaət bir daha onu göstərdi ki, adı çəkilən döyüşlər bizi Qarabağda böyük qələbəyə aparan şanlı yolun başlanğıcıdır", - deyə əsgər Tural Həsənzadə dostunun fikrini təsdiqləyir . - O yolu qət edən igid oğullarımızla, bu gün başda Ali Baş Komandanımız olmaqla, bütün şəxsi heyətimiz fəxr edir və bundan sonra da edəcəkdir. Adı çəkilən döyüşlər o şanlı qələbələrdir ki, bu gün də düşmənə sarsıdıcı zərbələr vurur. Düşmən bilməlidir ki, biz torpaqlarımızı işğaldan azad edəcəyik. Çünki Azərbaycanın qısa zamanda ərazilərini işğaldan azad etməyə qadir güclü və yenilməz ordusu var.



Bu gün "Qarabağ Azərbaycandır və nida işarəsi" çağırışı da özündə böyük ruh yüksəkliyi ehtiva edir, hər bir Azərbaycan əsgərini torpaqlarımızın işğaldan azad olunması uğrunda mübarizəyə səsləyir, bizim qəlbimizdə Vətən, torpaq sevgisini alovlandırır. Torpaqlarımız azad olmayınca bu alov sönməyəcək!

...Yaxın vaxtlarda əsgərlərimiz döyüşdən qabaq Əhməd Cavadın "Bismillah" şeirini oxuyacaq:

Atılsın dağlardan zəfər topları...

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Təlim*

# “Təlimdə tər, döyüşdə zəfər”

*Hər dəfə təlim mərkəzlərində olanda, şəxsi heyətin məşğələsini yaxından izləyəndə sevinc hissləri keçirirəm. Bir qayda olaraq zabit və əsgərlərimiz həmişə təlim mərkəzlərinə həvəs və maraqla gəlirlər. Onlar ilk dəfə silahdan hədəfə atəşi təlim mərkəzlərində açırlar. Canlı olaraq birinci dəfə güllə səslərini burada eşidirlər. Müharibənin də, döyüşlərin də nə demək olduğunu elə təlim mərkəzində görüb, hiss edirlər. Hiss etdikcə də xidmətə həvəs və məsuliyyətləri artır. Hərbi biliklərə də, döyüş vərdişlərinə də təlimlərdə yiyələnirlər. Gələcək uğurların bünövrəsi də keçirilən təlim məşqlərdə qoyulur. Buna görə də zabitlər dərs və məşğələlərin gedişinə məsuliyyətlə yanaşır, mövzuları əsgərlərə hərtərəfli öyrətməyə çalışırlar.*





Yenə də təlim mərkəzindəyik. Xoş duyğularla zabit və əsgərlərimizin məşğələlərini izləyirik. Təlim mərkəzi bir anlıq mənə müharibəni, qanlı döyüşləri xatırladır. Ətrafda xeyli silahlı zabit və əsgərlər, döyüş texnikaları var. Bir az bizdən uzaqda, boz təpələrin yan tərəfində atəş səsləri eşidilirdi. Sol cinahdan döyüş texnikaları ətrafı silkələyə-silkələyə irəliləyirdi. Tırtılların altından qalxan toz tüstüyə, tüstü də toza qarışdıqca, ətraf görünməz olurdu. Sonra yavaş-yavaş toz-duman çəkilirdi. Həm atəş səsləri, həm də zirehli texnikaların hərəkəti davam edirdi.

Geniş ərazidə təlim keçib döyüş hazırlığını artıran şəxsi heyətə yaxınlaşdıq. Zabit və əsgərlər məşğələ keçir, təcrübə və səriştələrini artırırdılar. Yaxınlıqda dayanıb onların məşğələlərini izlədik. Əsgərlər ətrafa göz qoya-qoya irəliləyirlər, komandirlərin işarəsi ilə qəflətən aşağı otururlar. Az keçmiş yenə də hərəkətlərinə davam edirdilər. Qarşıdakı səngərlərdə özlərinə əlverişli mövqe tutub atəş açmağa hazır olduqlarını komandirlərinə bildirirdilər.

Məşğələdə fasilə yaranarkən döyüş təcrübəsini artıran şəxsi heyətlə görüşdük. İlk olaraq zabit Əliheydər Fərəcov bildirdi ki, xeyli müddətdir şəxsi heyət təlimlərə cəlb olunub. “Məşğələdə iştirak edən zabit və əsgərlərimizin təcrübəsi getdikcə artır. Onlar nəzəri cəhətdən öyrəndiklərini əyani surətdə tətbiq edərək vərdişləri daha dərindən mənimsəyirlər. Məşğələnin gedişində əsgərlərimiz silahlarla canlı ünsiyyətdə olur, ondan müxtəlif məsafələrdəki hədəflərə atəş açırlar. Hər açılan atəş əsgərin təcrübəsini artırır, onu uğurlara ruhlandırır, qələbələrə istiqamətləndirir. Əsgərlərimiz tapşırıqları yüksək səviyyədə yerinə yetirərək qrupların dərinliklərdən irəliləməsini, minalı sahələrdən keçidlərin açılmasını və keçilməsini, rəqibin ön mövqelərinin tutulmasını, düşmənin dərinliklərində təbii və süni maneələrin dəf edilməsini və başqa zəruri vərdişləri mənimsəyirlər.”

Cəld hərəkətlərindən və tapşırığı yerinə yetirmək bacarığının yüksək olmasından hiss olunurdu ki, əvvəlki məşğələlər səmərəli keçib, onlar döyüş vərdişlərini mükəmməl şəkildə mənimsəyiblər. İnamla deyə bilərik ki, əsgərlərimiz döyüşlərdə ən çətin tapşırıqları yerinə yetirməyə hazırdırlar.

Söhbətimizi gizir Rövşən Rəhimovla davam etdirdik. Öyrənirik ki, Rövşən Aprel döyüşlərinin iştirakçısı olub. Əməliyyatlarda göstərdiyi cəsarət və qəhrəmanlığa görə ölkə başçısının müvafiq sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunub. Dörd övlad atası olan gizir R.Rəhimov söhbət zamanı dedi ki, Füzuli rayonunun İşıqlı kəndində dünyaya göz açmışam. "28 ildir ki, doğma ocaqlarımıza gedə bilmirik. Erməni işğalçıları 1993-cü ilin yayında ata-baba yurdumuzu işğal ediblər. Daşnaklar torpaqlarımıza hücum edəndə Vətən qeyrəti çəkən oğullar silaha sarılaraq döyüşlərə atıldılar. Kəndimizdən 17 nəfər şəhid oldu. Onların intiqamı, qisası mütləq alınmalıdır. Fəxr edirəm ki, Aprel döyüşlərində iştirak etmişəm. Bu əməliyyatlarda Azərbaycan əsgəri gücünü, qüdrətini erməni qəsbkarlarına göstərdi. Düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etdik. Daşnaklar əkshücumlarımızın qarşısında dayana bilmədilər, mövqelərini atıb qaçdılar. Aprel döyüşləri Böyük Qələbəyə gedən yolun başlanğıcıdır”.

- Aprel döyüşlərinin iştirakçısı olmaq mənim də bəxtimə düşüb, - deyə baş leytenant Zülfü Rzayev söhbətə qoşuldu. - Aprel döyüşlərində iştirak etmiş zabit və əsgərlərin üzü gülürdü. Hamını bir amal birləşdirirdi: torpaqlarımızı azad etmək. Düşmən hücumunun qarşısını alıb onları geri sıxışdırdıq. Torpaqlarımızı işğaldan azad edəndə sevincimiz yerə-göyə sığmırdı. Döyüşlərdə göstərdiyim igidliyə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olundum. Bu qələbələrin, bu uğurların davamlı olması üçün daim məşq edir, sabahkı döyüşlərə hazırlaşırıq.

Leytenant Turxan Qurbanov, əsgər Rəşad Fətiyev isə hərbi sirlərin şəxsi heyət üçün önəmli olduğunu söylədilər.

Zabit və əsgərlərlə söhbətimiz başa çatdıqdan sonra şəxsi heyət məşqlərini davam etdirdi. Mayor Əliheydər Fərəcov zabit və əsgərlərə növbəti əmr və tapşırıqlarını verdi. Məşğələ iştirakçıları əmri yerinə yetirərək cəld hərəkətlərlə irəli atıldılar. Onlar gələcək döyüşlərdə uğurlar qazanmaq üçün təcrübə və səriştələrini artırırdılar. Təbiidir ki, belə hazırlıqlı, peşəkar zabit və əsgərləri qarşıda yalnız qələbələr gözləyir. Çox gözəl deyilib: “Təlimdə tər, döyüşdə zəfər.”

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

---

Güclü ordu dövlətin müstəqilliyinin qarantı olduğu üçün ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət və qayğı göstərilir. Həmin diqqətin nəticəsidir ki, hazırda Azərbaycan Ordusu yalnız regionun deyil, dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Ordu quruculuğunda aparılan islahatların nəticəsində ordumuz ən müasir silah və texnikalarla təchiz olunur, hərbçilərimizin əhval-ruhiyyəsi artır, mənəvi-psixoloji durumu yüksəlir, ixtisas hazırlıqları gündən-günə təkmilləşdirilir. Əsgərlərimizin döyüş qabiliyyətinin artırılması məqsədi ilə mütəmadi olaraq nəzəri və praktiki məşğələlər keçirilir.

Bu günlərdə "N" hərbi hissəsində olarkən gənc əsgərlərin dərs prosesini izlədik. Leytenant Fərid Məmmədov şəxsi heyətə avtomat silahının taktiki-texniki xüsusiyyətlərini öyrədir, eyni zamanda, onun natamam sökülməsini izah edirdi. Əsgərlər zabitin nəzarəti altında silaha yaxınlaşır, komandirin göstərdiyi tapşırıqları bacarıqla yerinə yetirirdilər. Zabitin məşğələni həvəslə keçməsi, əsgərləri dərindən öyrətməsi onun peşəsinə olan sevgisindən xəbər verirdi. Dərs bitdikdən sonra şəxsi heyətlə söhbət etdik.

Leytenant Fərid Məmmədov əsgəri xidmətini başa vurduqdan sonra ordu sıralarına yenidən qayıtmaq qərarına gəlib. Gənc olmasına baxmayaraq, savadı, bacarığı və peşəsinə ürəkdən bağlılığı sözlərindən hiss olunan leytenant Məmmədov qeyd etdi ki, əsgərlərimiz üzərlərinə düşən məsuliyyəti anlayaraq Vətənimizə layiqincə xidmət edirlər. "Dövlətimizin ordu quruculuğuna diqqət və qayğısını hər gün hiss edirik. Komandanlığın təsdiq etdiyi döyüş hazırlığı tədbirləri kompleks şəkildə yerinə yetirilir. Günün nizam qaydalarına uyğun olaraq şəxsi heyətə dərslər keçirilir. Artıq əsgərlərimiz silahların taktiki-texniki xüsusiyyətlərini, onların sökülüb-yığılmasını və təmizlənməsini öyrəniblər. Biz təkcə nəzəri dərslərlə kifayətlənmirik. Müdafiə Nazirliyinin təsdiq etdiyi planlara əsasən, bölmələrin praktiki təlimləri, çöl çıxışları şəxsi heyətə yüksək səviyyədə keçirilir. Həmin təlimlərdə əsgərlər nəzəri biliklərini təcrübədə sınaqdan keçirir, atəş açmağı, dəqiq nişan almağı, hücum və müdafiə taktikalarını öyrənirlər. Bir sözlə, bilikləri təlim mərkəzlərində daha da mükəmməlləşdirirlər. Komandir heyəti kimi biz də bütün bilik və bacarıqlarımızı səfərbər edirik ki, hərbi xidmətə gələn gənclər döyüşə hazır əsgərlər kimi formalaşsınlar."



Əsgərlərlə də həmsöhbət olduq. Onların hər biri keçirilən dərslərdən razı olduqlarını bildirdilər. Qeyd etdilər ki, bütün məşğələlər səmərəli keçirilir, zabitlər onlara hərbi sirləri həvəslə öyrədirlər. "Atəş hazırlığı məşğələsi də həvəslə gözlədiyimiz dərslərdəndir. Hərbi xidmətə gəlməzdən əvvəl silahlar haqqında ilkin anlayışa malik idik. Artıq keçirilən dərslər sayəsində müxtəlif silahların bütün xüsusiyyətlərini, təyinatını dərindən öyrənmişik. Həmçinin silahın normativə uyğun natamam sökülməsini, silahla davranmağı, atəş açmağı mənimsəmişik.

Öyrəndiklərimizə görə təcrübəli zabitlərimizə borcluyuq. Gənc əsgər hazırlığını başa vurub, səngərdə torpaqlarımızın müdafiəsində dayanmağın arzusundayıq", - əsgərlər Röyal İmamverdiyev və Rufan Nuruzadə ürək sözlərini belə ifadə etdilər.

**Kursant**
**İbrahim MƏMMƏDBƏYOV**

*Gənc zabitlərimiz*

# Yaxın vaxtlarda təlimləri Cıdır düzündə keçəcəyik

*Düşmənlə təmas xəttində yerləşən bölmələrimizdən birindəyik. Hərbi hissədə bizi müşayiət edən zabit Ceyhun Rzayevə qəzetimizdə müntəzəm yer alan "Gənc zabit" rubrikasına yazı hazırlayacağımızı bildirəndə çox fikirləşmədən baş leytenant Fərid İsmayılovun adını çəkdi. Bildirdi ki, gənc zabit daim öz üzərində çalışır, tabeliyində olan şəxsi heyətə diqqət və qayğı göstərir, əsgərlərimizə döyüş növbəsində diqqətli olmağı, təhlükəsizlik qaydalarına ciddi riayət etməyi, Vətənimizi düşməndən göz bəbəyi kimi qorumağı tövsiyə edir. Gənc zabitin xidmətində Vətənimizə olan məhəbbəti, sevgisi aydın görünür.*



Zabit Ceyhun Rzayev şəxsi heyətin döyüş hazırlığından da söz açdı: "Hər bir əsgər başa düşür ki, döyüş növbətçisi olduğu zaman mövqelərimizin düşmənin gözlənə biləcək təxribatlarından müdafiə olunması kimi məsuliyyətli bir tapşırığı öhdəsinə götürür. Bu səbəbdən ayıq-sayıq olmalı, düşmənin fəaliyyətlərini nəzarət altında saxlamalıdır. Hər hansı bir hadisə baş verərsə, dərhal mövqe başçısını məlumatlandırmalı və növbəti əmri gözləməlidir. Necə ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmən təxribatının qarşısı əsgərlərimizin sayıqlığı sayəsində alındı. Bu, ordumuzun yüksək döyüş hazırlığından xəbər verir".

Öyrənirik ki, baş leytenant Fərid İsmayılov Heydər Əliyev adına Hərbi Liseyi uğurla bitirdikdən sonra hərbi təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. Bu gün artıq o, ali təhsil ocağında mənimsədikləri bilikləri tabeliyində xidmət edənlərə aşılayır. Çalışır ki, əsgərlərimizi sadəcə mahir döyüşçü kimi deyil, həm də layiqli vətəndaş kimi formalaşdırsın. Xidmətinə məsuliyyətlə yanaşdığına görə məqsədinə nail olur.

- Hərbçi olmağı qərar verdiyim gündən seçimimdən qətiyyən peşman deyiləm. Vətəni qorumaq müqəddəs vəzifədir. Səngər həyatı isə mərdlərin, cəsurların ünvanıdır. Burada rastlaşdığın hadisələr sənə dözümlü, təmkinli, soyuqqanlı olmağı və istənilən ekstremal şəraitdə təkbaşına qərar qəbul etməyi aşılayır. Bu xüsusiyyətlər hərbi peşəni seçən gənclərin xarakterini formalaşdırır. Həm də Ali Baş Komandanın ordu quruculuğu istiqamətində apardığı islahatlar sayəsində ordumuzun gücü gündən-günə artır. Bunun bariz nümunəsi olaraq, stasionar hərbi hissələrimizlə yanaşı, düşmənlə təmas xəttində yerləşən bölmələrimizdə yaradılan sosial-məişət şəraitini də göstərmək olar. Bu gün Azərbaycan əsgərinin qarşısında yalnız döyüş hazırlığını artırmaq vəzifəsi dayanır. Biz də bunun üçün əlimizdən gələni əsirgəmirik. Dövlət başçısından tezliklə döyüş əmrinin verilməsini gözləyirik. İnanıram ki, Şuşada Cıdır düzündə, Topxana meşəsində gəzəcəyimiz gün uzaqda deyil, - deyə zabit Fərid İsmayılov bildirdi.

Gənc zabitin Vətənimizə olan məhəbbəti, düşmənə olan nifrəti gözlərindən sezilirdi. O, ailəli olduğunu bildirdi. Fərid oğlu Mənafın da onun yolunu davam etdirməsini, indidən onda hərbi sahəyə sevgi yaratmağa çalışacağını dedi.

Baş leytenant Fərid İsmayılov kimi qəlbi Vətən eşqi ilə döyünən oğullarımızın sayı az deyil. Onların Vətənə bağlılığı nümunəvi xidmətlərində özünü əyani surətdə göstərir. Zabitin komandirləri və tabeliyində xidmət edənlərlə söhbətimiz zamanı şahidi olduq ki, gənc komandirə böyük inam və etimad bəslənilir. Bu inam, bu etimad baş leytenantı daha da ruhlandıracaq, ona hərbi xidmətində böyük uğurlar qazandıracaq...

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

*Ordu quruculuğu sahəsində qazanılan uğurlar hərbi tibb sahəsini də geniş əhatə edir. Vətən müdafiəçilərinin sağlamlığının keşiyində dayanmağı özlərinə həm vəzifə, həm də vətəndaşlıq borcu bilən həkimlərimiz uğurları ilə hamımızı sevindirirlər.*

*Tibb xidməti*

# İki müqəddəs peşə



Döyüş şəraitində olan ölkənin ordusunun hər cəhətdən hazırlıqlı olmasını özünə prioritet bilən ölkə rəhbərliyinin hərbi sahədə apardığı zəruri islahatlar nəticəsində paytaxt və iri şəhərlərlə yanaşı, cəbhə xəttinə yaxın olan bölgələrdə də hərbi səhiyyənin inkişafına yönəlik vacib addımlar atılır. Müasir tələblərə cavab verən hospitallar tikilir. Hərbi hissələrin tərkibində fəaliyyət göstərən tibb məntəqələrinin həkim personalı şəxsi heyətin sağlamlığını daim nəzarətdə saxlayır. Həmçinin hərbçi həkimlərimiz həm ölkə daxilində, həm də ölkə hüdudlarından kənarda təşkil olunan kurslarda iştirak edir, ölkəmizi və ordumuzu layiqincə təmsil edirlər. Qeyd etmək lazımdır ki, tibbi müəssisələrdəki müasir avadanlıqlardan istifadə qaydaları yüksək qabiliyyət tələb edir. Keçirilən kurslarda iştirak edən həkimlərimiz bu avadanlıqlardan həm nəzəri, həm də praktiki biliklər əldə edirlər.

Ön xətdə yerləşən hərbi hissələrimizdən birində tibb xidmətinin təşkili ilə tanış olduq. Zabit Zeynal Məhəmməd məntəqələrində yaradılan şəraitdən və gündəlik görülən işlərdən danışdı: "Hərbi səhiyyə ordu quruculuğunda ən mühüm sahələrdən biridir. Tam əminliklə deyə bilərəm ki, yeni istifadəyə verilən tibb məntəqəsi günümüzün tələblərinə cavab verir. Geniş otaqlarımız müasir tibbi avadanlıqlarla təmin edilib. Burada çalışan hərbçi-həkim personalı da Vətənimizi qoruyan əsgərlərin sağlamlığının keşiyində məsuliyyətlə dayanır. Müasir maddi-texniki imkanlara sahib olan məntəqəmizə müraciət edən xəstələrin şikayəti dinlənildikdən sonra müayinə edilir, çeşidləmə prosesi aparılır. Məntəqəmizdə istifadədə olan stasionar və təcrid otaqları müraciət edənlərin xəstəliyinin dərəcəsinə uyğun hazırlıq vəziyyətindədir. Xəstələrin qida və gigiyenik tələblərinin ödənilməsi üçün məntəqədə hərtərəfli şərait yaradılıb".

Zabit bölmələrdə aparılan profilaktik tədbirlərin mahiyyətini bizə izah etdi: "Hazırda dünyada koronavirus pandemiyası hələ də davam etməkdədir. Dünyanın hegemon ölkələrinin qarşısında aciz qaldığı bu pandemiya ölkəmizdə düzgün siyasət sayəsində, o qədər də geniş vüsət almadı. Ordumuz da bu sınaqdan üzüağ çıxdı. Şəxsi heyətin sağlamlığına birbaşa məsul olduğumuz üçün bu və ya digər xəstəliklərdən qorunmaq məqsədilə bölmələrdə təlimatlandırma və maarifləndirmə işləri aparılır. Mövsümə uyğun profilaktik tədbirlər icra edilir. Əsgərlərlə söhbətimiz zamanı gigiyenanın sağlamlıq üçün ən vacib şərt olduğunu xüsusi olaraq qeyd edirik. Gigiyena qaydalarına əməl edən şəxs öz sağlamlığının qayğısına qalır".

Zabitlə xəstələrin qəbul otağına daxil olduq. Burada gizir Anar Orucov əsgər Ramazan Əkbərovu müayinə edirdi. Prosesə mane olmadan gedişatı kənardan izlədik. Müayinə başa çatdıqdan sonra gizir Anar Orucovla kəlmələşdik. 2013-cü ildən ordu sıralarında olan təcrübəli gizir bu iki müqəddəs peşənin vəhdətindən yaranan hərbçi-həkim adını daşımaqdan fəxarət hissi keçirməsi ilə söhbətə başladı. "Həkimlik müqəddəs peşədir, hərbçi peşəsi də həmçinin. Bu gün bu iki müqəddəs peşənin sahibi olaraq Vətən müdafiəçilərinin sağlamlığına cavabdehik. Şəxsi heyətin sağlamlığını yüksək səviyyədə saxlamaq qarşımıza qoyulan əsas tapşırıqdı. Biz də üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışırıq. Torpaqlarımız işğalda olduğu üçün müharibə hər an labüddür. Aprel döyüşləri zamanı düşmən təxribatının qarşısını alarkən şəhidlərimiz də oldu, yaralılarımız da. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Yaralılarımız isə təcrübəli həkimlərimiz sayəsində müalicə edildi. Aprel döyüşlərində iştirak edən həkim kimi demək istərdim ki, o günlər yaralılar da tezliklə sağalıb yenidən döyüşlərə



qatılmaq istəyirdilər. Bu da ordumuzun şəxsi heyətinin yüksək döyüş ruhundan qaynaqlanırdı. Bizə də ruh verən bu amillərdi, peşəmizə sevgini artıran mərd oğullarımızın döyüş ruhudur. Bu gün ordu sıralarında xidmət edən hərbçi-həkim olaraq qeyd etməyim yerinə düşər ki, Aprel döyüşləri ordumuzun gücündən əlavə, hərbi səhiyyəmizin də uğurlarını bir daha ön plana çəkdi."

Məntəqəyə müraciət edən əsgərlər Rəsul Hüseynov və Ramazan Əkbərov söhbət zamanı burada yaradılan şəraitə görə ölkə və ordu rəhbərliyinə, həmçinin onlara göstərilən diqqət və qayğıya görə həkimlərə sonsuz minnətdarlıqlarını bildirdilər. Əsgərlər tezliklə sağalıb öz xidməti yerlərinə qayıtmaq istəyirlər. Həkimlərimiz onların yenidən xidmətə dönmələri üçün əllərindən gələni edirlər.

Bir daha əmin oluruq ki, hərbçi-həkimlərimiz bu peşəni seçdikləri üçün qürurludurlar və bu gün Vətən müdafiəçilərinin sağlamlıqlarını qoruyaraq bu vəzifəni daha da müqəddəsləşdirirlər. Bir sözlə, əsgərlərimiz Vətənimizin keşiyindədir, həkimlərimizsə əsgərlərimizin!

**Baş leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Əhmədiyyə Cəbrayılov - 100*

# Əbədi qardaşlıq nümunəsi

*Barbinka və Lvovdakı həbs düşərgəsindən Polşaya, oradan Almaniyaya, daha sonra Fransaya yola salınan hərbi əsirlərdən bir qrupunu Daxau ölüm düşərgəsinə göndərirlər. Onları burada qaz kamerasına salırlar. Bir müddət sonra nəzarətçilər əsirlərin meyitlərini kameradan çıxaranda yalnız bir nəfərin sağ qaldığını görürlər. Bu sonralar adı dillərdə əzbər olan qəhrəman həmyerlimiz Əhmədiyyə Cəbrayılov idi.*



Fransa Müqavimət Hərəkatında "Armed Mişel" adı ilə tanınan əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun həyat hekayəti çox maraqlı ömür yolu nə qədər şərəfli olsa da, keşməkeşli və ağrı-acılarla dolu olub.

...Əhmədiyyə əsir düşərgəsindən dəfələrlə qaçmağa cəhd göstərsə də, istəyi baş tutmur. Əvvəlcə fransız dilini öyrənir. Sonra yerli partizan dəstələrinə qoşulmaq üçün yollar axtarır. Nəhayət, Əhmədiyyənin cəhdləri bir gün reallaşır və partizan hərəkatına qoşulur. Ona burada "Xarqo" ləqəbi verilir. Almanların "Armed Mişel" kimi tanıdıqları azərbaycanlı partizan qısa müddətdə müxtəlif, həm də ən çətin əməliyyatlarda iştirak edir. Fransa partizanları sırasında xüsusi yeri olan Ə.Cəbrayılov 1944-cü il avqustun 22-də azad olunmuş Parisdə Fransa Müqavimət Hərəkatının rəhbəri general Şarl de Qolla görüşür. Bu tanışlıq onların əbədi dostluğuna çevrilir. Həmin vaxtlarda Əhmədiyyənin Şarl de Qollun iştirak etdiyi bütün tədbirlərə qatılması da onların münasibətinin hər ikisi üçün böyük önəm kəsb etməsindən xəbər verir.

Zamanında Ə.Cəbrayılov mətbuata açıqlamasında general Şarl de Qolla tanışlığını belə nəql edirdi: "Mən bəstəboy, arıq bir oğlan idim. Partizanlara qoşulandan sonra aylarla onlar məni sınadılar. Saysız-hesabsız əməliyyat tapşırıqlarına gedərək partizanların rəğbətini qazanmağa nail oldum. Həmişə başıma fransız kepkası qoyurdum ki, sadə fransızlardan seçilməyim. Bir gün elə oldu ki, Şarl de Qolla əməliyyata gedəsi oldum. De Qoll hansısa bir ərəfədə qabağa keçərkən ona dedim ki, sən keç arxaya və özüm qabağa getdim. De Qoll dedi ki, niyə belə edirsən? Cavab verdim ki, əgər səni vursalar, bütün Fransa partizanları, müqavimət hərəkatı başsız qalacaq, əgər məni vurası olsalar heç bir qorxusu yoxdur". De Qoll Əhmədiyyənin bu sədaqətindən və cəsarətindən təsirlənir və onların birgə əməliyyatları həmin gün uğurla başa çatır. Onların əsl dostluğunun təməli də elə o gün qoyulur.

Sonradan çoxlu sayda döyüş tapşırıqlarını yerinə yetirən Əhmədiyyə 1945-ci ilin mayında birinci fransız ordusunun tərkibində döyüşlərə qatılır. Müharibədən sonra Fransada qalan partizan Dijanda adına dövlət avtomobil zavodunda fəaliyyət göstərsə də, eyni zamanda, De Qoll bundan əlavə ona mükafat və var-dövlət təklif etsə də, o, Vətənə - Azərbaycana, doğulub boya-başa çatdığı doğma Şəkiyə qayıtmaq qərarına gəlir. Dostunun şərəfinə vida mərasimi təşkil edən Şarl De Qoll çıxışında "Müqavimət hərəkatında iştirak edən qafqazlılar faşizmə qarşı döyüşlərdə həqiqi qəhrəmanlıq göstərmişlər" sözlərini deyir...

Nəhayət, 1946-cı il noyabrın 25-də "Armed Mişel" ləqəbli Ə.Cəbrayılov SSRİ-yə qayıdır. Burada onu "Vətən xaini" kimi qəbul edirlər, Moskvada mükafatlarının bir hissəsini də əlindən alırlar. O, tezliklə sovet həyat tərzinə alışır.

Şarl de Qoll və Əhmədiyyə Cəbrayılov dostluğunun ən maraqlı səhifəsi isə 1966-cı ildə yaşanır. Həmin ildə Moskvaya rəsmi səfərə hazırlaşan Fransa prezidenti aeroportda onu qarşılayanların sırasında SSRİ vətəndaşı olan və Azərbaycanda yaşayan "Armed Mişel"in də olmasını istədiyini bildirir. Moskvada və Bakıda "Armed Mişel"in kimliyindən xəbərsiz olduqlarından onu tapmaq elə də asan olmur. Ən nəhayət, gərgin axtarışlardan sonra onu Şəkinin Oxud kəndində tapıb, Moskvaya dostunu qarşılamağa göndərirlər. Şarl de Qoll Moskvada SSRİ rəhbərlərinin iştirakı ilə keçən görüşlərin birində qeyd edir ki, partizanlıq etdikləri vaxt Əhmədiyyə ilə barmaqlarını çərtərək qədim əyyamların adətənənəsinə uyğun qanlarını birləşdirib qan qardaşı olublar. Əhd-peyman bağlayıblar ki, heç bir zaman bir-birini unutmayacaqlar. General son cümləsində sovet rəhbərlərini təəccübləndirəcək bir söz də deyir: "Mən bu Azərbaycan oğluna görə SSRİ ilə Fransanın yaxınlaşmasına qərar verdim".

Publisist-politoloq, Avropa müqavimət hərəkatında Azərbaycan oğullarının döyüş bioqrafiyasının tədqiqatçısı Ruqiyyə Əliyevanın "Azərbaycanlılar Avropa müqavimət hərəkatında" kitabında xalqımıza bu vaxtadək yetərincə çatdırılmayan bir sıra adlar və faktlar öz əksini tapıb. Tədqiqatçı kitabında Əhmədiyyə Cəbrayılov barədə çoxlu faktların olduğunu xüsusi qeyd edirdi: "1977-ci ildə Fransa Müqavimət Hərəkatında iştirak etmiş, bu ölkənin Milli Qəhrəmanı və "Fəxri Legion" ordeni kavaleri Əhmədiyyə Cəbrayılovla görüşdüm. Döyüş bioqrafiyasını xatırlayan qəhrəmanın şəxsi arxivindən götürüb göstərdiyi bir şəkil daxa çox marağıma səbəb oldu. Azad olmuş Fransada rəsmi ziyafət təsvir olunan bu fotoda ölkənin müqavimət hərəkatının lideri general Şarl de Qollun sağ tərəfində əyləşmiş adamın nə rus, nə amerikan, nə ingilis, nə də erməni deyil, məhz azərbaycanlı olması məni hədsiz dərəcədə fərəhləndirdi. Bu, soydaşımız Əhmədiyyə müəllimin özü idi. Yeri gəlmişkən, deyim ki, belə bir fakt ermənilərin əlində olsaydı, onsuz da təsirlərinə saldıqları Fransaya daha böyük minnət qoyardılar."

Azərbaycan kinematoqrafçıları igid həmyerlimizin şanlı döyüş yolundan bəhs edən "Mübarizənin min günü" adlı sənədli film çəkiblər. Filmin yaradıcı heyəti "Xarqo" ləqəbi ilə partizan hərəkatında qəhrəmanlıq xarüqələri yaradan Əhmədiyyənin doğulub böyüdüyü doğma kəndində - Oxudda olur. Sonra onunla birlikdə Fransaya gedərək, orada döyüş dostları ilə təsirli görüşləri ni lentə alırlar. Həyat və mübarizəsi Vətənə məhəbbət nümunəsi sayılan Ə.Cəbrayılov haqqında yazıçı Həsən Quliyev sənədli povest yazır. Türkiyədən olan yazıçı Öztürkün də Əhmədiyyə Cəbrayılov haqqında kitabı var.

Təbii ki, baş verənlər Ə.Cəbrayılovun həyatını dəyişdirir. 1968-ci ildə "Vətən xaini" adı onun üstündən götürülür və bəraət alır. 1970-ci ildə Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra Şəki rayon Nərimanov adına kolxozda baş aqronom işləyir. 1971-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunur. O, müxtəlif illərdə döyüşlərdə iştirak etdiyi Montoban, Rodez, Tuluza, Albi şəhərlərinə gedir, eyni zamanda, Paris, Bordo, Strasburq, Lion, Dijon və Marseldə olur və keçmiş döyüş yoldaşları ilə görüşür. Əhmədiyyə Cəbrayılov 1975-ci ildəki səfəri zamanı Fransa senatında senator Jak Düklo tərəfindən qəbul edilir və ona bu görüşdə xatirə medalı təqdim olunur.

1976-cı ildə Böyük Vətən müharibəsində iştirakına görə "Oktyabr İnqilabı" ordeninə layiq görülür. 1977-ci ildə Tarn və Qaronda Fransa partizan hərəkatında birgə iştirak etdiyi Rene Şambar Sovet İttifaqına gəlir və Ə.Cəbrayılovla görüşür.

1986-cı ildə Ə.Cəbrayılov Fransanın "Müharibə xaçı", "Hərbi şücaət xaçı", "Fransa Müqavimət Hərəkatı" və "İgidliyə görə" medalları ilə təltif olunur. 1990-cı ildə general Şarl de Qollun 100 illiyinə həsr olunmuş mərasimlərdə iştirak etmək üçün Parisə dəvət edilir. 1994-cü il yanvarın 6-da "Front National"ın nümayəndəsi Rene Rassel Əhmədiyyə Cəbrayılova Fransa Müqavimət Hərəkatında iştirakını təsdiqləyən sənədi təqdim edir. Elə həmin ildə də məşhur partizan dünyasını dəyişmişdi...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## "Hərbçilərin guya erməni kəşfiyyatçısını tutduqlarına görə cəzalandırılmaları barədə məlumatlar yalandır"

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi erməni kəşfiyyatçısını tutduqlarına görə guya xidmətdən ehtiyata buraxılan hərbi qulluqçular barədə sosial şəbəkələrdə yayılan məlumatlara münasibət bildirib.

Nazirliyin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin hərbçilərin guya erməni kəşfiyyatçısını tutduqlarına görə cəzalandırıldıqları haqda deyilənlər yalandır, uydurmadır və ordu rəhbərliyinə qarşı böhtandır: "Baş verənlərlə bağlı bunları bildiririk ki, bəzi hərbi qulluqçular Azərbaycan Ordusunda smartfon tipli telefonlardan istifadənin qadağan olunması barədə müvafiq əmrin tələblərini kobud şəkildə pozublar. Belə ki, həmin hərbi qulluqçular ələ keçirilən erməni kəşfiyyatçısının foto və videogörüntülərini çəkərək yaxın qohumlarına göndəriblər, nəticədə görüntülərin sosial şəbəkələrdə yayılmasına şərait yaradıblar. Faktla bağlı aparılan ilkin araşdırmaların nəticəsi olaraq təqsirkar hərbi qulluqçular xidmətdən ehtiyata buraxılıb və toplanan materiallar hüquqi qiymət verilməsi üçün Hərbi Prokurorluğa göndərilib".

## Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş Xocavənd yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrinin birində xidmətdən bezən əsgər Ara Petrosyan qəsdən özünə xəsarət yetirib.

Dözülməz şəraitdən, təhqir və təzyiqlərdən təngə gələn A.Petrosyan odlu silahdan atəş açmaqla özünü yaralayıb.

Hərbi hospitala yerləşdirilən əsgər haqqında və onu bu hədddə çatdıran komandiri barəsində cinayət işi açılıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən daha bir hərbi qulluqçu əsgər yoldaşları tərəfindən vəhşicəsinə döyülüb.

Ağdərə yaşayış məntəqəsində yerləşdirilən işğalçı ordunun hərbi hissəsinin əsgəri Tiqran Hovsepyan xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülüb. Müxtəlif bədən xəsarətləri alan T.Hovsepyan tibb məntəqəsinə yerləşdirilib.

Faktla bağlı cinayət işi başlanılıb və araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***10 sentyabr 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 44 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***11 sentyabr 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Əsrik Cırdaxan və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Füzuli rayonunun Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Tarix olduğu kimi*

# İki dövlət, bir millətin övladları



*Azərbaycan hərb tarixinə xilaskar ordu adı ilə daxil olan Qafqaz İslam Ordusunun paytaxt Bakımızı daşnak-bolşevik birləşmələrindən azad etməsindən 102 il ötür. İki il öncə 15 sentyabr tarixində Azadlıq meydanında böyük türk oğlu Nuru Paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusunun Bakını işğalçılardan azad etməsinin 100-cü ildönümünə həsr olunmuş möhtəşəm parad keçirildi. Türkiyə Respublikasının dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iştirakı ilə keçirilən bu möhtəşəm parad Türkiyə və Azərbaycanın bir millət, iki dövlət olmaqla əbədi dostluğunun, qardaşlığının nümunəsi kimi tarixləşdi.*

102 il bundan öncə 1918-ci ildə Azərbaycan, xüsusilə Bakı öz çətin və məşəqqətli günlərini yaşayırdı. Azərbaycanda türk-müsəlman əhalisinə qarşı erməni-bolşevik birləşmələri tərəfindən başlanan qırğın minlərlə insanın vəhşicəsinə öldürülməsi ilə nəticələndi. Azərbaycan mayın 28-də öz istiqlalını elan etsə də, Cümhuriyyətin rəhbərləri Bakıya gələ bilmir, fəaliyyətlərini Tiflisdə davam etdirirdilər. Bolşeviklər zəbt etdikləri Bakının türk-müsəlman əhalisinin kütləvi qırğınını törədirdilər.

Bütün bunları nəzərə alan Azərbaycan hökuməti 1918-ci il iyunun 4-də Osmanlı hökumətinin Ədliyyə naziri Xəlil bəy və üçüncü ordunun komandiri Vəhib Paşa ilə bir müqavilə imzalayır. Bu müqavilənin 4-cü maddəsinə rəğmən Azərbaycan Xalq Cümhuriyyəti öz istiqlalını qorumaq üçün Türkiyədən hərbi yardım istəmək haqqına malik idi. Azərbaycan xalqının yardım istəyinə Türkiyə hökuməti dərhal razılıq verir. Bu müraciətə əsasən, iyunda 5-ci Qafqaz diviziyası və 15-ci Çanaqqala diviziyası Nuru Paşanın komandanlığı altında birləşir. Bundan sonra Azərbaycan-Osmanlı hərbi birləşmələri Qafqaz İslam Ordusu adlanmağa başlayır. Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçür. O dövrün tarixi mənbələrində qeyd olunur ki, 5-ci Qafqaz diviziyası Gümrü və Qazax istiqamətində Azərbaycana yardım etmək üçün hərəkət edir. Bu qüvvələr iki qrup halında Qazaxa daxil olur. Birinci qrupda 147 zabit, 2812 əsgər, ikinci qrupda 110 zabit, 2763 əsgər var idi. Türk ordusu Cəlaloğlu, Sadaxlı, Kəmərli, Aslanbəyli istiqamətində hərəkət edərək Qazaxa gəlir. Lakin 1918-ci il iyunun 30-da daşnak-bolşevik hərbi birləşmələri Göyçaya qəfil hücum etdikləri üçün türk qüvvələrinə əlavə kömək məqsədilə 38-ci alay Azərbaycana 65 zabit və 2475 əsgər göndərir.

Qeyd olunan bu qüvvələrdən sonra 3-cü ordunun ehtiyatda olan 350 əsgərinin iyulun 9-da Qazaxa gəldiyi də bildirilir. İyunun 27-də Qafqaz İslam Ordusu Gəncə istiqamətində irəliləyən erməni-bolşevik qoşun birləşmələrinin qarşısını Göyçay yaxınlığında alır. İyulun 1-də Qafqaz İslam Ordusu əks-hücuma keçir.

Türk qüvvələrindən əlavə Azərbaycan Korpusu da formalaşdırılmışdı. Bu korpusda xidmət edən azərbaycanlı zabitlər Qafqaz İslam Ordusu komandanlığı tərəfindən Gəncədə açılan qısamüddətli hərbi kurslarda təhsil almışdılar. Bu korpusa azərbaycanlılardan ibarət bir neçə alay və könüllülər daxil idi. Azərbaycan Korpusuna podpolkovnik Həbib bəy Səlimov komandanlıq edirdi.



Qafqaz İslam Ordusu Bakıya yaxınlaşırdı. Onlar ciddi müqavimətə rast gəlsələr də, irəliləyirdilər. Xilaskar türk ordusu Azərbaycanın nizami və könüllü dəstələri ilə çiyin-çiyinə irəliləyirdi. Onu da qeyd edək ki, Bakının azad olunmasından 39 gün öncə türk ordusunun Bakıya hücumu məğlubiyyətlə nəticələnmişdi. Türkiyədən əlavə hərbi qüvvələr istəyən və öz hissələrindəki Azərbaycan könüllülərini hərbi cəhətdən hazırlayan ordu ikinci qəti hücuma hazırlaşırdı. Bu döyüşlər çətin keçdiyindən Osmanlı ordusunun 15-ci diviziya qərargahı, 56-cı və 106-cı piyada alayları 1200 əsgərdən ibarət şəxsi heyəti Bakıya əlavə qüvvə kimi göndərmişdi. Azərbaycana beş qrup halında göndərilən hərbi qüvvələr cəmi 10 min nəfərdən ibarət idi. Bakının alınması uğrunda qanlı döyüşlər gedirdi. Neçə-neçə qəhrəman türk əsgəri bu döyüşlərdə canını qurban verdi, şəhid oldu.

Sentyabrın 14-dən 15-nə keçən gecə Qafqaz İslam Ordusu sürətli hücumla Bakıya daxil oldu. Bakı işğalçı qüvvələrdən azad edildi. Gecə saat 3-də başlayan bu əməliyyat az bir vaxtda qələbə ilə sona çatdı. Sentyabrın 15-i Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa Gəncədə yerləşən Azərbaycan hökumətinə teleqram göndərdi: "Allahın köməyilə Bakı şəhəri 15 sentyabr, saat 9-un başlanğıcında bizim qoşunlar tərəfindən alındı."

1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu Bakını daşnak-bolşevik qüvvələrinin işğalından tamamilə azad etdi və hökumət Gəncədən Bakıya köçdü. Qəhrəman türk ordusunun bu xilaskarlıq yürüşü azərbaycanlıları tamamilə məhv olmaqdan qurtardı…

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzeti tariximizə yazılmış bu qələbəni ayrıca bir şərəflə, qürurla öyür, Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanı fateh adlandırırdı.

Lakin Azərbaycanın bu sevinci uzun sürmədi. Birinci Dünya müharibəsinin səbəbkarı Almaniyanın müttəfiqi sayılan Türkiyə bu müharibədəki məğlubiyyəti ilə əlaqədar olaraq öz ordusunu noyabrın 16-na kimi Bakıdan çıxarmalı idi. Çox çətin vəziyyətdə qalan Azərbaycan Xalq Cümhuriyyətinin yalnız bir ümid yeri qalmışdı. O da Qafqaz İslam Ordusunun müəyyən sayda qüvvələrinin Azərbaycanda saxlanılması idi. Bununla bağlı Türkiyənin ordu komandanı İzzət Paşa bildirmişdi: "Biz məcbur olub yalnız bunu deyə bildik ki, arzu edən zabitlər türk ordusu ilə əlaqəni kəsib, Azərbaycanda qala bilərlər."

İngilis qoşunu isə general Tomsonun başçılığı ilə Bakıya gəlirdi. Bakı əldən-ələ keçirdi…

Azərbaycan Xalq Cümhuriyyətini bir məsələ düşündürürdü: türk zabitlərini necə olursa-olsun, Bakıda saxlamaq. Yeni yaradılan Azərbaycan Ordusuna təcrübəli zabitlər çox gərəkli idi.

Vəziyyətin ağırlığına baxmayaraq, ordu Bakını tərk etmək istəmirdi. Lakin başqa çarə qalmamışdı. General Tomson ordunun Bakını tərk etməsini tələb edirdi. Nuru Paşa Azərbaycan Ordusunun xidmətinə keçdiyini, bu səbəbdən Bakıda qalacağını bildirsə də, heç bir faydası olmadı. Lakin Nuru Paşa heç cür inadından dönmək istəmirdi. Son dərəcə vətənpərvər, cəsur hərbçi olan bu türk oğlu Azərbaycanın xilası üçün canından belə keçməyə hazır idi. Cümhuriyyətin qurucularından sayılan Əhməd Ağaoğlunun qızı Süreyya Ağaoğlu "Atamın dostları" kitabında böyük məhəbbətlə bəhs etdiyi bu cəsur komandan haqqında yazırdı: "Yeni hökumət Qafqaz Ordusuna dönmək əmri verdi. Gənc komandan zabit arkadaşlarını toplayaraq "Mən dönməyəcəyəm - dedi, - sizlər sərbəstsiniz!". Sonra özü ilə qalan əsgər və zabitlərlə Qafqazı işğal etməyə başlayan ingilislərlə döyüşdü…"

Türk ordusu Bakını tərk etmək məcburiyyətində qaldı. Lakin Azərbaycanın istiqlalı yolunda minlərlə şəhid olan, bu yolda canından könüllü keçən türk övladının tökülən qanı Azərbaycan adlı bir məmləkətin bu gün müstəqil bir dövlət kimi yaşamasında həlledici rol oynadı. Onlar Bakını tərk etsələr də, öz təcrübələrini, azadlıq eşqini azərbaycanlı qardaşlarına əmanət qoyub getdilər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə və Yunanıstan hərbi heyətləri NATO-nun qərargahında görüşüblər



NATO-nun Belçikanın paytaxtı Brüsseldəki mənzil-qərargahında Türkiyə və Yunanıstanı təmsil edən hərbi heyətlər arasında "Proseduraların aydınlaşdırılması" texniki görüşü keçirilib.

Məlumatı Türkiyə Milli Müdafiə Nazirliyi yayıb. Bildirilir ki, hərbi birliklər arasında mümkün toqquşmaların qarşısını almaq üçün tədbirlərin müzakirə olunduğu iclasda qarşılıqlı fikir mübadiləsi aparılıb.

Növbəti görüşün qarşıdakı günlərdə keçirilməsi nəzərdə tutulur.

### İran ordusu genişmiqyaslı hərbi təlimlərə başlayıb



İran ordusu sentyabrın 9-da "Zülfüqar-99" adlı genişmiqyaslı hərbi təlimlərə başlayıb.

Bu barədə İranın Hərbi Dəniz Qüvvələrinin komandanının müavini admiral Həbibullah Səyyari məlumat verib.

O bildirib ki, Hörmüz və Oman boğazları ətrafı da daxil olmaqla təlimlər 2 milyon kvadratmetr ərazini əhatə edəcək təlimlərə hərbi dəniz qüvvələri ilə yanaşı, Hərbi Hava və Hava Hücumundan Müdafiə Qüvvələri də cəlb olunub. Təlimlərdə piyada qoşunları və müxtəlif hərbi texnika, "Fateh" adlı sualtı gəmi də iştirak edəcək.

Admiral nəzərə çatdırıb ki, hərbi təlimlərin məqsədi ordunun hazırlıq səviyyəsini yoxlamaqla yanaşı, onun potensialını nümayiş etdirməkdən ibarətdir. İranın düşmənləri başa düşməlidir ki, istər dəniz, istərsə də quru sərhədlərində hər hansı təxribata yol versələr, çox sərt cavab alacaqlar.

### NATO-nun İraqdakı missiyasında Latviya hərbçilərinin iştirakının vaxtı uzadılıb



Latviya hökuməti hərbi qulluqçuların NATO-nun İraqdakı missiyasında 2022-ci il noyabrın 1-dək iştirakına dair Seymin qərar layihəsini təsdiqləyib.

Bu il əvvəlində vəziyyətin gərginləşməsindən sonra İraq NATO-ya yerli təhlükəsizlik qüvvələrinin gücləndirilməsinə dəstəyi artırmaq xahişi ilə müraciət edib. NATO-nun İraqdakı missiyası döyüş tapşırıqlarını yerinə yetirmir.

Latviya hərbi qulluqçuları İraqda "İnherent Resolve" (Sarsılmaz qətiyyət) əməliyyatında iştirak edirlər. Onlar burada yerli təhlükəsizlik qüvvələrinə təlim keçiblər.

### Ukraynada saxlanılan terrorçu Türkiyəyə gətirilib



Ukraynada saxlanılan PKK-KCK terrorçusu İsa Özer Türkiyəyə gətirilib.

Terrorçunun Türkiyəyə gətirilməsi qardaş ölkənin Milli Kəşfiyyat Agentliyi tərəfindən keçirilən əməliyyat nəticəsində baş tutub.

Əldə edilən məlumata əsasən, saxlanılması barədə qərar çıxarıldıqdan dərhal sonra Türkiyə ərazisini tərk edən terrorçunun Odessada olduğu müəyyən edilib. Silahlı terror təşkilatına üzv olma şübhəsi ilə axtarışda olan terrorçunun Ukraynada da terror fəaliyyətini davam etdirdiyi bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

*Vətənpərvərlik*

# "Get, sevgilim, uğur olsun, sən mərd vuruş, sən mərd dayan!"



"İşıqlı insan" düşündürücü deyimi də var və işıq kəlməsi onun təfəkkürünün, yeni, düşüncələrin ifadəsi kimi dərk edilir. Belə insanlara vətənpərvər deyirik...

V.Belinskinin "Öz Vətəninə mənsub olmayan bəşəriyyətə də mənsub deyil" fikrini "Şeirləri Vətəninin söz sərhədi olmayan şair bəşəriyyətə mənsub deyil" kimi ifadə edə bilərik.

Şairin düşüncələrinin işığı şeirlərindədi. Yaradıcılığının məntiqi "möhürbəndi" Vətən deyən şairlərin fikir dünyasının nəhayətsizliyi Vətən sevgisinin hüdudlarıyla qoşalaşır; sərraf oxucu bu səbəbdən gözəl şeiri ruha nemət bilir, bilir ki, şair Vətən üçün həmişə cavandı, şeirləri bəşəriliyin şeirləri kimi oxunur. Oxuna-oxuna sevilən, sevilə-sevilə oxunan şairin yüzlərlə şeiri tarixin yaddaşındadı. Tarixin yaddaşını müharibələr də pozmağa qadir deyil. Tarix şəxsiyyətlərin, deməli, onun təmsil etdiyi xalqın mənəvi dəyərlərini sədaqətlə mühafizə edir. 103 yaşlı xalq şairi Nigar Rəfibəyli belə şair olub, belə yaşadılır.

Nigar Rəfibəyli 1913-cü ildə Gəncədə doğulub. Atası Xudadad bəy Rəfibəyli Azərbaycan Demokratik Respublikası dövründə Gəncə quberniyasının general-qubernatoru olub, 1920-ci il iyunun 1-də güllələnib...

Nigar Xudadad qızı böyüdü, Bakı Pedaqoji Texnikumunu (1930), Moskva Pedaqoji İnstitutunu (1936) bitirdi. Bir poetik tezisi xatırlayıram: elmə söykənən poeziya daha möhtəşəm olur. Fitrətən şair olan Nigar Xudadad qızı şair, həm də böyük şair Nigar Rəfibəyli oldu. Bakıda kinostudiyada ssenari şöbəsində, "Azərnəşr"də tərcüməçi, redaktor işlədi...

1928-ci ildə "Dan ulduzu" jurnalında dərc olunan "Çadra" şeiri şairin şeiriyyət dünyasına ilk poetik salamı oldu.

Nigar Rəfibəyli həm də sərraf tərcüməçi idi. Onun Məhsəti Gəncəvidən etdiyi tərcümələr həm orijinala sədaqətiylə, həm də poetikasıyla dəyərlidir. Rübai, müəyyən mənada, bayatı qəlibinə yaxındır. Dörd misrada yüksək bədii fikir demək asan deyil. Məhsəti Gəncəvinin rübailəri Nigar Rəfibəylinin tərcüməsində həm oxunaqlıdır, həm də ilkinliyi haqqında oxucuda kifayət qədər gözəl (və real!) təəssürat yaradır:

*Suyu həm şirindir, həm də ki, zəhər*
*Çox da qürrələnmə uzundur ömrüm.*
*Əcəl köhlənində hazırdır yəhər.*

"İgidin sağı-solu olmur" deyimi var. Bu deyimi şairlərə ünvanlasaq, "şair üçün mövzu məhdudiyyəti olmur" kimi ifadə edə bilərik; zövqlü oxucu Nigar Rəfibəylinin "Ala gözlüm" şeirinin kövrəkliyini də, lirizmini də misraların bədii yükünü hansı duyumla yaşadırsa, vətənpərvərlik şeirlərinin uvertürası kimi səslənən,

*Şirindir Vətəndə hər acı tüstü,*
*Şirindir Vətənin küləkləri də! -*

deyən şairin "Get, sevgilim, uğur olsun" şeirini də Vətənə sevginin söz ifadəsi biçimində o duyumun sarıldığı düşüncə ilə yaşadır...

Milli mentalitetə görə əzizi uzaqlara gedənlər kövrək anlar yaşayır, ayrılıq anlarında kövrəlir, bu kövrəklik gözlərdən yaş da dərir. Belə duyğusal məqamlarda Vətən naminə, Vətənin müqəddəsliyinin yaşarılığı naminə göz yaşları ürəyinə axır. Şeirdə güclü bədii ümumiləşdirmə var və bu obrazın - sevdasını döyüşlərə yola salan azərbaycanlı qızın

*Get, sevgilim, uğur olsun,*
*sən mərd vuruş, sən mərd dayan! -*

uğurlaması böyük Nizaminin "Eşqdir mehrabı uca göylərin" misrası məntiqi baxımdan "Uca göylərin mehrabı Vətən sevgisidir" kimi oxunur. Oxuyursan, düşüncələrindən min illərin o üzündən dikələn öyüdləri görürsən. Gənc qızın, bu anlamda şair Nigar Rəfibəylinin doğmalığını, munisliyini, bəşəriliyini duyursan! "Əziz xatirələrlə dolu olan bu torpağı qoru" tapşırmasında xatirələr təkcə uğura çıxan, uğur diləyənin xatirələri deyil, bu xatirələr zaman-zaman bu torpaqda Vətən üçün yaşayanların, son nəfəsi də Vətənə ad olanların xatirələridi.

Sevdasını döyüşə yola salanda yaşadığı anların kövrəkliyini ötəri xatırlatsa da, inamından söz açan bədii "mən" üçün də, döyüşən əsgər üçün də, onların təmsil etdiyi xalq üçün də bir ucalıq, bir müqəddəslik var: Vətən ucalığı, Vətən müqəddəsliyi. Böyük Vətən müharibəsi xalqımızın da tarixidir, xalq qələbə naminə o illərin bütün ağrı-acılarını dəyanəti ilə, mənəvi dəyərləri mühafizə etməklə, yaşatmaqla yumşaltdı. Döyüşən əsgər əmin idi ki, əzizləri qələbə naminə bütün çətinliklərə dözəcək, ona da əmin idi ki,

*Bilirdim ki, getdiyin yol*
*müqəddəsdir, mərd yoludur.*
*Qəlbindəki Vətən eşqi,*
*müqəddəsdir, çox uludur, -*

deyənlər qələbə murazlıdı. Poetik duyğuya əsasən inanırsan ki, onu döyüşə yola salanda göz yaşlarını gizlədən qız, qələbədən sonra onu qarşılayanda göz yaşlarını yola-izə səpələyəcək...

Döyüşçü şair Şirzad Əliyevin "Gözlə məni" şeiri ilə (Süleyman Ələsgərov bəstələyib) Nigar Rəfibəylinin "Get Sevgilim" şeiri arasında mənəvi-ruhi bağlılıq var, bu bağlılıq qələbə ruhudu: "Gözlə məni"də bədii "mən" "Qələbəylə qayıdacam" deyir, "Get sevgilim"də bədii "mən" "Qələbəylə qayıdacaqsan" deyir. Hər ikisində fikir qətidir, mütləqliyi, zəruriliyi ifadə edir.

Azərbaycanda müharibə ədəbiyyatı, müharibə dövrünün poeziyası müharibənin ilk günündən müsəlləhləşdi - müsəlləh poeziyadı; Nigar Rəfibəylinin poeziyası döyüşən əsgərlərimizin ruh qardaşı idi.

Ali Baş Komandanın əmriylə başlayacaq döyüşlərə gedən əsgərlərimizi "Get, sevgilim, uğur olsun" kimi müsəlləh şeirlərin ruhu da uğurlayacaq. Bu istək indi daha dönməzdir. Xalqımız əsgərlərimizi qələbəyə aparacaq yolu dumduru niyyətiylə, milli-xəlqi ruhun işığıyla uğurlayacaq. Və inanırıq ki, Ali Baş Komandanın döyüş əmri qələbəylə tamamlanacaq!..

*Heç gözlərim yaşarmadı*
*sən ayrılıb gedən zaman,*
*Get, sevgilim, uğur olsun,*
*sən mərd vuruş, sən mərd dayan!*
*Qoru təmiz eşqimizə*
*Gülümsəyən al səhəri,*
*İlk gəncliyin şən çağında*
*çiçək açan bu yerləri.*
*Qoru əziz xatirələr*
*dolu olan bu torpağı!*
*Əzəmətli Vətənimin*
*dincliyini pozan yağı*
*Qoy bilsin ki, mərd igidlər,*
*sona qızlar bəsləyən el*
*Azğın faşist quldurunun*
*önündə diz çökən deyil!*
*Sən gedəndə ağlamadım,*
*gözlərimdə od yanırdı,*
*Qəlbim böyük həqiqətə*
*bir inamla inanırdı,*
*Bilirdim ki, getdiyin yol*
*müqəddəsdir, mərd yoludur.*
*Qəlbindəki Vətən eşqi,*
*müqəddəsdir, çox uludur.*
*Bilirdim ki, sənin yolun*
*məğlubların yolu olmaz!*
*Sən əsgərsən, əsgər olan*
*döyüşlərdə heç yorulmaz*
*İlk baharda açılarkən*
*bağçalarda ağ yasəmən,*
*Vətən üçün vuruşlardan*
*sən zəfərlə dönəcəksən.*
*O gün həsrət çəkən gözlər*
*bir sevinclə yanar, yanar,*
*İlk baharın al laləsi*
*bayraq kimi dalğalanar.*
*Üfüqlərdən qalxan günəş*
*salamlayar səni tezdən,*
*Bəlkə sevinc yaşlarıyla*
*ağlayaram o zaman mən.*
*Sən zəfərlə ana yurda*
*döndüyün vaxt, o gün səhər*
*Mən qarşına çıxacağam*
*qucağımda al çiçəklər.*
*Qəhrəmanlıq sorağını*
*alan zaman, onda hamı,*
*Qoy bilsin ki, kimdən alır*
*mənim şerim xoş ilhamı.*

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Qarabağ"-"Molde" oyunu Kiprdə keçiriləcək



UEFA Çempionlar Liqasının III təsnifat mərhələsi çərçivəsində "Qarabağ" və Norveçin "Molde" klubu arasında keçiriləcək oyunla bağlı qərarını açıqlayıb.

Qarşılaşma Kiprin Larnaka şəhərinə təyin olunub.

Sentyabrın 16-da "AEK Arena"da təşkil olunacaq qarşılaşma Bakı vaxtı ilə saat 21:00-da başlayacaq.

## Şahmat üzrə iddiaçılar turnirinin bərpa vaxtı dəqiqləşib

Yekaterinburqda dünya şahmat tacına namizədlərin mübarizə apardıqları, lakin koronavirus pandemiyası səbəbindən dayandırılmış turnir noyabrın 1-də davam etdiriləcək.

Bu barədə Beynəlxalq Şahmat Federasiyası məlumat yayıb. Məlumatda bildirilib ki, Tbilisi yarışların təşkili üçün ehtiyat şəhər kimi seçilib.

Bundan əvvəl Sverdlovsk vilayətinin Şahmat Federasiyasının prezidenti Andrey Simanovski turnirin oktyabrın 28-də davam edəcəyi ilə bağlı məlumat vermişdi.

İddiaçılar turniri martın 26-da 7-ci turdan sonra yarımçıq dayandırılıb. Yeddi turdan sonra Yan Nepomnyaşi (Rusiya) və Maksim Vaşe-Laqrav (Fransa) 4,5 xalla birinci və ikinci yerləri bölüşürlər. Yarışın digər iştirakçıları Aniş Giri (Niderland), Aleksandr Qrişuk (Rusiya), Fabiano Karuana (ABŞ) 3,5, Kiril Alekseyenko (Rusiya) və Liren Dinq (Çin) 2,5 xal toplayıblar.

Xatırladaq ki, ötən il keçirilmiş dünya kubokunun sahibi kimi iddiaçılar turnirinə vəsiqə qazanan Teymur Rəcəbovun bu nüfuzlu turnirdə iştirakı alınmayıb. Şahmatçımızın koronavirusla əlaqədar turnirin təxirə salınması barədə təklifi FIDE tərəfindən qəbul olunmadığından o, iştirakdan imtina etmişdi.

## Azərbaycan millisi UEFA Millətlər Liqasında ilk qələbəsini qazanıb



Futbol üzrə UEFA Millətlər Liqasının ikinci turu çərçivəsində keçirilən Kipr-Azərbaycan oyunu başa çatıb.

Futbolçularımızın üstünlüyü şəraitində keçən görüşdə Azərbaycan millisi qələbə qazanıb - 0:1. Matçın 29-cu dəqiqəsində Maksim Medvedev fərqlənib.

C Liqasının 1-ci qrupunda yer alan hər iki komanda turnirə məğlubiyyətlə başlayıb. Kipr doğma meydanda Monteneqroya (0:2), Azərbaycan millisi isə Lüksemburqa (1:2) uduzub.

## Kriştiano Ronaldo Portuqaliya millisinin heyətində 100-cü qolunu vurub



Sentyabrın 8-də futbol üzrə UEFA Millətlər Liqasının 2020-2021-ci illər mövsümünün ikinci turu çərçivəsində Portuqaliya millisi səfərdə İsveç seçməsini 2:0 hesabı ilə məğlub edib.

Oyunda hər iki qolun müəllifi olan Kriştiano Ronaldo milli komandanın heyətində 100-cü qolunu vurub.

Bu nəticəyə əsasən Ronaldo milli komandaların heyətində ən çox qol vuran (109 qol) iranlı Əli Daei arasında fərqi azaldıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 537
Nüsxə 3960